"Aztelekom" MMC-nin baş mühasibi Oqtay Rüst□mov h□bs olunub.



"Dalğa TV" xəbər verir ki, əməliyyat dünən Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən həyata keçirlib.

Binəqədi rayon Məhkəməsinə aparılan baş mühasib haqda ilkin olaraq 3 aylıq həbsqətimkan tədbiri seçilib. Oqtay Rüstəmov Cinayət Məcəlləsinin 3 maddəsi (vəzifədən sui-istifadə etmə, dələduzluq və korrupsiya) ilə təqsirli bilinib.

Qeyd edək ki, O. Rüstəmov bundan əvvəl Ağdaş və Göyçay Telekommunikasiya Qovşağında sədr vəzifəsində də çalışıb.

"Aztelekom" MMC-dan verilən məlumata görə, Oqtay Rüstəmov işə çıxmır: "Oqtay Rüstəmov xəstə olduğu üçün işə gəlmir. Amma o, həbs olunmayıb".